

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 96 (23.007)

23 may 2018-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Mayın 22-də Bakının Suraxanı rayonunda "ATEF Şirkətlər Qrupu"nun yüksəkgərginlikli avadanlıqlar zavodunun açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Şirkətlər qrupunun yaranması və fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verilərək bildirilib ki, "ATEF Şirkətlər Qrupu" innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsulları istehsal edən müəssisələrdən biridir və son illərdə ölkədə sənayenin inkişafı sahəsində görülən işləri təcəssüm etdirir.

Prezident İlham Əliyev yüksəkgərginlikli avadanlıqlar zavodunu işə salıb.

Dövlətimizin başçısı istehsal prosesi ilə tanış olub.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 22 may tarixli Sərəncamı ilə Azərbaycanda ətraf mühitin qorunmasında xidmətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları da vardır.

**İsmayılov Məhərrəm Həsən oğlu**

**Səfərov Oruc İsa oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

## Yerli istehsal məhsulları sahibkarlara tanıdılıb

***Mayın 22-də "Cahan Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yaradılmış plastik boru, profil və aksesuarların istehsalı müəssisəsində istehsal olunan məhsulların Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən tikinti şirkətləri və tikinti materiallarının topdan satışı ilə məşğul olan mağaza sahiblərinə tanıdılması məqsədilə tədbir keçirilib.***



Tədbirdə çıxış edən cəmiyyətin icraçı direktoru Anar Abdullayev bildirib ki, plastik boru, profil və aksesuarların istehsalı ilə məşğul olan müəssisənin məqsədi daxili bazarı yüksəkkeyfiyyətli tikinti materialları ilə təmin etməkdir. Burada quraşdırılmış tam avtomatlaşdırılmış avadanlıqlarla müxtəlif qapı-pəncərə profilləri, polipropilen əsaslı kompozit və sadə içməli su boruları, eləcə də polietilen əsaslı sərt sulama boruları, PVC əsaslı lambir, saydinq və aksesuarlar, PVC əsaslı yumşaq rezin suvarma şlanqları, kanalizasiya boruları, müxtəlif boru fitinqləri olmaqla, 7 növdə və 160 çeşiddə məhsul istehsal olunur. Bu avadanlıqlar vasitəsilə məhsulların təzyiqə, istiliyə və zərbəyə davamlılığının, o cümlədən xammalın tərkibinin yoxlanması da mümkündür. Burada istehsal olunan hər məhsul növünə beynəlxalq sertifikat verilib.

İstehsal edilən məhsullar haqqında ətraflı məlumat alan sahibkarlarla söhbət zamanı onlar daxili bazarda belə məmulatlara böyük tələbat olduğunu xüsusi vurğuladılar. "Təməl" Sənaye və Ticarət Şirkətinin təmsilçisi Rövşən Hüseynov, Naxçıvan şəhərində tikinti materialları satışı ilə məşğul olan sahibkar Rəhim Qasımov, şərurlu topdansatış mağaza sahibi Şəmsəddin Seyidov və Babək rayonunun Nehrəm kəndindən gəlmiş Vaqif İsmayılov dünya standartlarına uyğun olan, yüksəkkeyfiyyətli, qiymətcə münasib olan belə mallara üstünlük verildiyini bildirdilər.

Qeyd edək ki, tədbirdə iştirak edən Naxçıvan şəhərində və muxtar respublikamızın rayonlarında fəaliyyət göstərən 60-a yaxın sahibkar müəssisədəki istehsal texnologiyası ilə tanış olub.

**Əli CABBAROV**

## Növbəti beynəlxalq arıçılıq konfransı keçirilib



Naxçıvan Dövlət Universitetində keçirilən konfransda muxtar respublikada arıçılıqla məşğul olan iri təsərrüfat sahibləri, Azərbaycan Dövlət Pedaqoji İnstitutu, Azərbaycan Arıçılar Assosiasiyası, Türkiyənin Uludağ Universiteti, Azərbaycan Baytarlıq Elmi-Tədqiqat İnstitutu, Azərbaycan Peşəkar Arıçılar Birliyi, AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti, Kənd Təsərrüfatı Nazirliyi və Baytarlıq Xidmətinin əməkdaşları iştirak ediblər.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov konfransı giriş sözü ilə açaraq muxtar respublikada arıçılığa göstərilən dövlət qayğısından danışıb. Qeyd olunub ki, regionda kənd təsərrüfatının digər sahələri kimi, arıçılığın da inkişafı dövlət qayğısı ilə əhatə olunub.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev bildirib ki, arıçılara davamlı dövlət qayğısı göstərilir. Naxçıvanda 2017-2022-ci illərdə arıçılığın inkişafı üzrə Dövlət Proqramı həyata keçirilir. Təkcə 2017-ci ildə bu sahə üzrə təsərrüfat subyektlərinə 50 min manat məbləğində kredit verilib, 3 arıçılıq təsərrüfatı və mum vərəqi istehsalı sahəsi yaradılıb. Tədbirdə son illər Naxçıvanda arıçılığın inkişafı barədə geniş söhbət açılıb. Bildirilib ki, muxtar respublikada əvvəllər cəmi 6045 arı ailəsi var idisə, göstərilən dövlət qayğısının nəticəsində arı ailələrinin sayı artıq 70 mini ötüb.

Türkiyənin Uludağ Universiteti Baytarlıq fakültəsi, Parazitologiya kafedrasının professoru Levent Aydın arıçılığın mövcud problemləri, müxtəlif arı xəstəlikləri haqqında məlumat verib. Vurğulanıb ki, arı xəstəlikləri zamanı kimyəvi dərman preparatlarından vaxtında və düzgün istifadə etməklə yüksəkkeyfiyyətli və saf arıçılıq məhsulları almaq olar. Qonaq arı xəstəliklərinin vaxtında müəyyən edilib aşkarlanmasında müasir metodların əhəmiyyətindən danışıb.

Azərbaycan Arıçılar Assosiasiyasının sədri Bədrəddin Həsrətov istehsal olunan məhsulların xarici bazara çıxarılması yolları haqqında məlumat verib.

Sonra konfrans "Regionlarda arıçılığın müasir vəziyyəti, yem bazası və inkişaf perspektivləri", "Arı yetişdirmə seleksiya-damazlıq işi və yerli arı genofondunun qorunma yolları", "Arıçıların təhlükəli arı xəstəlikləri və zərərvericilərinə qarşı aparılan baytarlıq-sanitariya tədbirləri" mövzularında bölmə iclasları ilə davam etdirilib.

**Səadət ƏLİYEVA**

***Muxtar respublikada torpaqların elektron uçotunun aparılması, torpaq sahələrindən səmərəli istifadənin təmin edilməsi, vətəndaşların daşınmaz əmlak üzərindəki hüquqlarının dövlət reyestrində qeydiyyata alınması zamanı göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi bu ilin aprel ayı ərzində də Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən diqqət mərkəzində saxlanılmışdır.***

## Daşınmaz əmlakın qeydiyyatı və torpaqlardan istifadəyə nəzarət diqqət mərkəzindədir

"Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 2 aprel tarixli Fərmanı ilə müəyyənləşdirilmiş vəzifələrin icrasının təmin edilməsi, torpaq sahələrinin konturlarının çöl geodeziya-ölçmə işləri aparılmaqla dəqiqləşdirilməsi və parametrlərin torpaqların elektron kadastr uçotu informasiya sisteminə daxil edilməsi məqsədilə ay ərzində Naxçıvan şəhərinin Tumbul və Hacıniyyət kəndlərində daşınmaz əmlak obyektlərinin plana alınması başa çatdırılmış, Şərur rayonunun Cəlilkənd və Danyeri, Babək rayonunun Zeynəddin kəndlərində planaalma işləri davam etdirilmiş, 1170 daşınmaz əmlak obyekti plana alınmışdır.

Şərur rayonunun Zeyvə, Düdəngə, Cəlilkənd, Sərxanlı və Mahmudkənd bələdiyyələrinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanmış və torpaqların növləri üzrə uçotu aparılmışdır. Şahbuz rayonunun Qızıl Qışlaq, Güney Qışlaq, Keçili və Yuxarı Qışlaq bələdiyyələrinin mövcud mülkiyyət növləri üzrə torpaq sahələrinin elektron kadastr xəritələri hazırlanmış, bu xəritələrin məlumatları ilə torpaq reyestrində saxlanılan məlumatların uyğunluğu yoxlanılmış və uçotu aparılmışdır.

Muxtar respublikanın torpaq sahələrinin təyinatı üzrə istifadə vəziyyəti daim nəzarətdə saxlanılmış, aşkarlanmış qanunsuz istifadə faktları aktlaşdırılmış, belə halların aradan qaldırılması və qanunsuz tikililərin sökülərək torpaqların əvvəlki vəziyyətinə qaytarılması üçün müvafiq tədbirlər görülmüşdür. Aprel ayında muxtar respublika üzrə 228 torpaq sahəsi olmaqla, cəmi 498 daşınmaz əmlak obyekti qeydiyyata alınmışdır. Muxtar respublika üzrə ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranmış 59 daşınmaz əmlak obyektinə ünvan verilmişdir. 67 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır.

Vətəndaşlara səyyar xidmətin göstərilməsi davam etdirilmiş, ay ərzində muxtar respublika üzrə 8 yaşayış məntəqəsində 45 vətəndaşın müraciətinə baxılmışdır.

***Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

***Azad sahibkarlıq fəaliyyətinin geniş vüsət aldığı muxtar respublikada yerli ehtiyatlar hesabına müxtəlif növdə sənaye məhsulları istehsalının təşkili, aqrar sektorda emal sənayesinin genişləndirilməsi, sosial xidmət sahələrində kiçik və orta sahibkarlığın daha da gücləndirilməsi 2018-ci ilin ötən dövrü ərzində də prioritet sahələr kimi öz əhəmiyyətini qorumuşdur. Belə ki, il ərzində sənaye və kənd təsərrüfatı sahələri olmaqla, ümumilikdə, 18 layihənin əsası qoyulmuşdur. Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikamızın, demək olar ki, bütün bölgələrində yaradılan istehsal və xidmət sahələri regional inkişaf üçün də mühüm əhəmiyyət daşıyır.***

## Bir sıra məhsullar üzrə idxaldan asılılıq azalmışdır

Muxtar respublikada rəqabətqabiliyyətli, ixracyönümlü, çoxşaxəli, innovativ iqtisadiyyatın formalaşdırılması, sənayenin inkişafının sürətləndirilməsi, mütərəqqi təcrübəyə əsaslanan yeni sənaye müəssisələrinin yaradılması istiqamətində işlər uğurla davam etdirilir. Cari ilin ötən dövrü ərzində müasir standartlara cavab verən belə sənaye müəssisələri fəaliyyətə başlayıb.

Müəssisələrin profillərinə gəldikdə, burada sənaye sahəsi üzrə qızıl-gümüş zinət əşyaları istehsalı, plastik boru, profil və aksesuarların istehsalı sahələri diqqəti cəlb edir.

Muxtar respublika iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edən sənaye sahəsi üzrə bu layihələr arasında ilk olaraq Naxçıvan şəhərində "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən qızıl-gümüş zinət əşyaları istehsalı sahəsini, "Cahan Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən plastik boru, profil və aksesuarların istehsalı sahəsini göstərmək olar. Belə ki, bu müəssisələrdə, ümumilikdə, 320 nəfər üçün yeni iş yerləri yaradılmışdır. Özəl investisiya qoyuluşu və dövlət maliyyə dəstəyi ilə yeni sənaye müəssisələrinin fəaliyyətə başlaması nəticəsində bir sıra məhsullar üzrə idxaldan asılılıq azalmış, tələbatın yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir.

Bu ilin ötən dövrü ərzində muxtar respublikada kənd təsərrüfatı sahələri üzrə istifadəyə verilmiş müəssisələr arasında Şərur rayonunda heyvandarlıq, balıqçılıq, istixana təsərrüfatlarını, Babək rayonunda heyvandarlıq təsərrüfatlarını, cücə istehsalı sahəsini, "Sumqala Tikinti Təchizat" MMC tərəfindən mövcud üzüm bağının genişləndirilməsini, Culfa, Ordubad, Kəngərli rayonlarında heyvandarlıq təsərrüfatlarını göstərmək mümkündür.

Qarışıq yem istehsalı, qaynaq çubuğu (elektrod) və kimyəvi tərkibli tikinti materialları, plastik tara, tullantı yağların yenidən emalı və bərk sürtkü yağlarının, plastik səbət, süd məhsulları istehsalı, soyuducu anbar, quşçuluq və heyvandarlıq təsərrüfatları, arı yeşiyi, çərçivə (pətək) istehsalı və arıçılıq təsərrüfatı, meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi və xidmət sahələri olmaqla, 20 sahənin yaradılması istiqamətində işlər davam etdirilməkdədir.

Həyata keçirilən layihələrin reallaşdırılması məqsədilə cari ilin ötən dövrü ərzində Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondu tərəfindən 17 layihənin maliyyələşdirilməsinə güzəştli şərtlərlə 5 milyon 609 min 700 manat maliyyə dəstəyi göstərilmişdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Dövlət başçısının muxtar respublikaya növbəti səfəri də ictimaiyyət nümayəndələrində böyük təəssürat yaradıb

***İctimai həyatın bütün sahələrində yüksək tərəqqiyə nail olan, qarşıya qoyulan strateji hədəfləri uğurla reallaşdıran, Naxçıvan Muxtar Respublikasının tarixinə mayın 16-sı daha bir əlamətdar hadisə kimi yazıldı. Həmin gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev muxtar respublikaya səfərə gəldi. Ölkə rəhbərinin ötən 15 il ərzində muxtar respublikaya 14 dəfə səfərə gəlməsi və 135-dən çox müxtəlif təyinatlı mühüm əhəmiyyətə malik obyektin açılışında iştirak etməsi Naxçıvanın sürətli sosial-iqtisadi yüksəlişinin bariz nümunəsidir. Azərbaycan Prezidenti qədim diyarımızda müxtəlif sahələr üzrə həyata keçirilən kompleks quruculuq tədbirlərini növbəti səfərində də yüksək qiymətləndirdi. Muxtar respublikanın tanınmış ictimaiyyət nümayəndələri dövlət başçısının Naxçıvana səfərinin xoş təəssüratlarını bizimlə bölüşdülər.***

***İsmayıl Hacıyev – AMEA Naxçıvan Bölməsinin sədri, akademik:*** – Ölkə başçısının Naxçıvana hər səfəri muxtar respublikamızın daha da inkişafına əsaslı təsir edir, görülmüş işlər təqdir olunur, yüksək qiymətləndirilir, görüləcək işlərə stimul verilir, əlavə vəsaitlər yönəldilir.



Müstəqilliyin ölkəmiz üçün yaratdığı imkanlardan məqsədyönlü şəkildə istifadə olunması, düşünülmüş daxili və xarici siyasət Azərbaycanın dünyada rolunu və nüfuzunu artırıb. Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs və bu kursu qətiyyətlə həyata keçirən Prezident cənab İlham Əliyev Azərbaycan Respublikasını Cənubi Qafqazın lider dövlətinə çevirib. Ölkə başçısının regionların sosial-iqtisadi inkişafı ilə bağlı imzaladığı iki dövlət proqramı uğurla və ən yüksək səviyyədə yerinə yetirilib, üçüncü proqramın icrası isə artıq yekunlaşmaq üzrədir.

Respublikamızın dinamik və hərtərəfli inkişafında Naxçıvan Muxtar Respublikasının öz yeri və rolu vardır. Ötən illər ərzində qədim diyarımızda çox böyük nailiyyətlər əldə olunub. Dövlət başçısı cənab İlham Əliyev hər səfərində burada görülən işlərin yüksək məhəbbət və zövqlə yerinə yetirildiyini qeyd edib. Həmin səfərləri zamanı ölkə rəhbərinin çıxışlarından sitatlara nəzər salaq: ***"Blokada şəraitində yaşayan Naxçıvan böyük addımlarla irəliləyir. Çox sevinirəm ki, bu qədim diyar belə sürətlə inkişaf edir", "Sadəcə olaraq mən öz təəssüratlarımı, öz sevincimi ifadə etmək istəyirəm ki, bu gün Naxçıvan, sözün əsl mənasında, inamla və uğurla inkişaf edir", "Burada hər bir sahədə gözəl inkişaf var. Naxçıvan şəhəri gözəlləşir, yaşıllaşır, abadlaşır. Hər tərəf göz oxşayır, hər tərəfdə böyük zövqlə binalar tikilir. Bütün bu işlər onu göstərir ki, bu işləri görən insanlar doğma xalqına, doğma diyarına qəlbən bağlıdırlar", "Bu gün Naxçıvan nəinki Azərbaycanda, bölgədə dünya miqyasında ən abad şəhərlərdən biridir. Təkcə şəhərdə yox, bütün bölgələrdə də quruculuq, inkişaf işləri gedir", "Naxçıvan çiçəklənən bir diyardır".*** Bütün bunlar muxtar respublikada görülən işlərə Prezident cənab İlham Əliyev tərəfindən ayrı-ayrı vaxtlarda verilən yüksək qiymətdir.

Dövlətimizin başçısı hər dəfə olduğu kimi, 2018-ci il səfərində də müxtəlif obyektlərin açılışında iştirak etdi, quruculuq işlərini həyata keçirənlərin əməyini yüksək qiymətləndirdi, razı qaldığını bildirdi. Naxçıvan Müəllimlər İnstitutunun yeni binası ilə tanışlıqdan sonra Prezident cənab İlham Əliyev şəhər ictimaiyyətinin nümayəndələri və ali təhsil ocağının kollektivi ilə görüşündəki çıxışında ölkəmizin müstəqilliyinin əldə edilməsi və qorunub saxlanılmasında Naxçıvanın rolu, muxtar respublikada aparılan abadlıq-quruculuq işləri, qədim diyarın sürətli inkişafı, qazlaşdırılması və enerji ilə təminatı məsələləri, içməli su və avtomobil yolları layihələrinin uğurla yerinə yetirilməsi, sosial məsələlərin həlli, iqtisadiyyatın real sektorunun inkişafına göstərilən böyük diqqət, Naxçıvanın blokadadan çıxarılması istiqamətində atılan addımlar, bu yurdun təhlükəsizliyi və başqa bu kimi digər mühüm məsələlərdən danışaraq qürurverici faktlarla görülən işlərin əhəmiyyətini qeyd etdi.

Ölkə başçısı Naxçıvan Muxtar Respublikasına səfərindən sonra muxtar respublika ərazisində sosial-iqtisadi inkişafın sürətləndirilməsi, meliorativ tədbirlərin həyata keçirilməsi, Ordubad Su Elektrik Stansiyasının və Culfa-Ordubad magistral avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlərin davam etdirilməsi üçün, ümumilikdə, dörd sərəncam imzaladı, nəzərdə tutulan işlərin yerinə yetirilməsi məqsədilə vəsait ayrıldı.

Prezident cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri bir daha onu göstərdi ki, bu gün qədim diyarımızda geniş quruculuq və abadlıq tədbirləri uğurla davam etdirilir, çoxsaylı infrastruktur layihələri reallaşdırılır, müxtəlif istehsal müəssisələri, sosial obyektlər, ali təhsil və elmi müəssisələr işə salınır, yeni iş yerləri açılır. Bütün bunlar isə muxtar respublikanın simasını dəyişməklə bərabər, əhalinin rifah halının yüksəldilməsinə, onların sosial problemlərinin həllinə, elmin, təhsilin, mədəniyyətin inkişafına özünün müsbət təsirini göstərir.

***Elman Cəfərli – Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru, dosent:*** – Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə muxtar respublikamıza 14-cü səfəri də əvvəlki səfərləri kimi siyasi, sosial-iqtisadi, hərbi baxımdan, həm də ictimai əhəmiyyət baxımından xeyli önəmli idi və bu mənada, səfər zəngin təəssüratlarla yadda qaldı. Belə ki, cənab Prezidentimizin 2018-ci il aprelin 11-də ölkəmizdə keçirilən prezident seçkilərindən cəmi 1 ay sonra onun Naxçıvana gəlməsi bu dəfə də ölkə gündəminin əsas siyasi hadisəsinə çevrildi. Cənab İlham Əliyevin Naxçıvan, onun işgüzar sakinləri haqqında söylədiyi yüksək fikirlər qəlbimizi fəxarət hissləri ilə doldurdu.



Səfər zamanı müxtəlif təyinatlı obyektlərin açılışlarının olması muxtar respublikanın təhsil, tibbi və hərbi baxımdan maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində əldə edilən ən son nailiyyətlərin göstəricisi idi. Elə buradaca qeyd edim ki, hörmətli Prezidentimizin səfərdən qayıtdıqdan dərhal sonra imzaladığı dörd mühüm sərəncam nəqliyyat, enerji və su təsərrüfatı infrastrukturunun daha da möhkəmləndirilməsində böyük əhəmiyyətə malik olacaq, muxtar respublikamızın inkişafına yeni töhfələr bəxş edəcəkdir.

Ən əsası isə cənab İlham Əliyevin səfəri muxtar respublika əhalisinin yaddaşında daha bir əlamətdar ictimai-siyasi hadisə kimi iz qoydu. Dövlət başçısının hər səfərinin gətirdiyi yüksək ovqat, onun bütün zəhmətkeş naxçıvanlıların əməyinə verdiyi yüksək qiymətdən doğan böyük sevinc hissi uzun müddət bizi tərk etməyəcək və yeni-yeni nailiyyətlərin qazanılması üçün stimul olacaqdır.

***Sədaqət Həsənova – Naxçıvan Müəllimlər İnstitutunun prorektoru, professor:*** – Hər bir xalqın təhsili onun gələcək taleyini müəyyənləşdirən göstəricilərdən biridir. Bu gün Azərbaycan təhsili hərtərəfli şəkildə irəli gedir və mühüm inkişaf mərhələsini yaşayır. Mayın 16-da Azərbaycan Respublikası Prezidenti Naxçıvana səfəri zamanı yenidən qurulmuş Naxçıvan Müəllimlər İnstitutu binasının açılışında söylədiyi dərin nitqində də bu barədə ətraflı danışdı.



Dövlət başçısının təhsil quruculuğuna da xüsusi diqqət və qayğı göstərməsi təhsil işçilərində, tələbələrdə ruh yüksəkliyi yaradır, onlara daha uğurlu nəticələrə nail olmaq hissi aşılayır.

Qədimliyi və müasirliyi ilə seçilən Naxçıvan şəhərinə yaraşıq gətirən yeni binanın istifadəyə verilməsi isə tədris prosesinin ən müasir səviyyədə təşkilinə şərait yaradıb.

Ölkə rəhbərinin Naxçıvan Müəllimlər İnstitutunun binasının açılışında iştirakı professor-müəllim və tələbə heyətini ürəkdən sevindirdi, onlarda gələcək fəaliyyət üçün böyük həvəs və inam yaratdı. Bütün kollektiv Prezidentimizin etimadını doğrultmaq üçün var-qüvvəsi ilə çalışmaq əzmindədir. Bizə yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlığımızı bildiririk.

***Yeganə Məmmədova – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi:*** – Bu gün hər birimiz qürur duyuruq ki, Azərbaycan, həmçinin onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Prezidentimiz cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi ötən 15 ildə tarixi nailiyyətlər qazanıb.



Muxtar respublikanın sosial-iqtisadi tərəqqisi, hər il yeni sənaye və istehsal müəssisələrinin işə salınması, tikilən, yaxud yenidən qurulan sosial-mədəni obyektlər, bu məqsədlə əsas kapitala yönəldilən investisiyaların artımı buna bariz nümunədir. Hərtərəfli inkişafın əsasında isə Prezident cənab İlham Əliyevin dövlət başçısı kimi muxtar respublikaya mütəmadi diqqət və qayğısı, ümummilli lider Heydər Əliyev ideyalarının doğma Naxçıvanımızda siyasi uzaqgörənlik və qətiyyətlə davam etdirilməsi dayanır.

Muxtar respublikamızın ümumi inkişafı Şərur rayonunun timsalında da aydın görünür. Ötən illər ərzində rayonda geniş abadlıq-quruculuq işləri aparılıb, bir sıra əhəmiyyətli obyektlər tikilərək istifadəyə verilib. Mayın 16-da Azərbaycan Prezidenti cənab İlham Əliyevin iştirakı ilə "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin birinci mərhələsinin açılışı bölgədə aparılan quruculuq işlərinin növbəti təzahürüdür. Bununla da Şərur şəhərində, Mahmudkənddə və Zeyvə kəndinin bir hissəsində 13 min 500 sakin Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə davamlı olaraq təmin edilir. Onu da qeyd edim ki, bu layihə ulu öndərin təşəbbüsü ilə rayonumuzda ötən əsrin yetmişinci illərində icra olunan Arpaçay Su Anbarının tikintisindən sonra ikinci ən böyük layihədir.

Mən də bu bölgənin sakini kimi muxtar respublikamızda görülən işlər, həyata keçirilən quruculuq, abadlıq tədbirləri ilə qürur hissi keçirir və şərəf duyuram ki, bu gün doğma Naxçıvanımız böyük sürətlə inkişaf edir. Bu inkişaf ulu öndərimiz Heydər Əliyev ideyalarına sadiqliyin bəhrələridir.

***Aidə Allahverdiyeva – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi:*** – May ayı naxçıvanlılar üçün daha bir əlamətdar hadisə ilə yadda qaldı: ayın 16-da ölkə başçısı cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfərə gəldi, burada bir sıra obyektlərin açılışında iştirak etdi. Ölkə başçısının Naxçıvan haqqında, Naxçıvanın son 15 ildə əldə etdiyi yüksək inkişaf səviyyəsi, sosial və iqtisadi cəhətdən qazanılan uğurlar, yüksək quruculuq-abadlıq işləri haqqında söylədiyi fikirlər həm bir naxçıvanlı, həm də bir ziyalı kimi məni çox qürurlandırır.



Bu gün muxtar respublikamızda təhsilə yüksək dövlət qayğısı göstərilir. Məhz bunun nəticəsində, ölkə başçısı Naxçıvana hər səfərində burada bir sıra təhsil müəssisələrinin də açılışında iştirak edir. Mayın 16-da isə Naxçıvan şəhərinin Qaraxanbəyli kənd 6 nömrəli tam orta məktəbinin, Naxçıvan Müəllimlər İnstitutunun açılışında iştirak etdi. Onu da deyim ki, hər iki təhsil ocağı ən müasir infrastrukturla, maddi-texniki baza ilə təchiz olunub. Bütün bunlar biz təhsil işçilərini sevindirir və məsuliyyətimizi daha da artırır. Yeni uğurlara ruhlandırır.

Ölkə başçısı ictimaiyyət nümayəndələri ilə görüşündə Naxçıvanda görülən işləri yüksək qiymətləndirdi. Bu, hər bir naxçıvanlı üçün qürurverici haldır. Buna isə ulu öndər Heydər Əliyev siyasi xəttinin muxtar respublikamızda uğurla davam etdirilməsi nəticəsində nail olunub.

***Dilsuz Əliyev – ehtiyatda olan polkovnik-leytenant:*** – Ordu quruculuğu, onun döyüş və peşəkarlıq səviyyəsinin artırılması istiqamətində ümummilli liderimiz Heydər Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü siyasət bu gün Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Naxçıvanın müdafiə qabiliyyəti daha da artıb, bir mərkəzdən idarəetmə təkmilləşdirilib və nəticədə, daha effektiv müdafiə sistemi qurulub. Həyata keçirilən tədbirlər sayəsində muxtar respublikada birləşmə və hissələrin döyüş qabiliyyəti və peşəkarlığı artırılıb, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı xeyli yüksəldilib. Məhz bunun nəticəsində Əlahiddə Ümumqoşun Ordu 2017-ci ildə hazırlıq planına əsasən görülən işlərin nəticələrinə, döyüş və ictimai-siyasi hazırlıqda əldə olunmuş nailiyyətlərə görə Azərbaycan Respublikası Silahlı Qüvvələri üzrə birinci yerə layiq görülüb. Bunu da xatırladaq ki, ötən il oktyabrın 18-də muxtar respublikada ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən hərbi parad da ordumuzun Naxçıvanda yerləşən hissələrinin gücünü bütün dünyaya nümayiş etdirdi.



Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev mayın 16-da qədim diyarımıza səfəri zamanı bir daha vurğuladı ki, Naxçıvan Muxtar Respublikasının uğurlu inkişafı üçün təhlükəsizlik tədbirləri ön planda və prioritet məsələ olmalıdır. Buna görə də hərbi potensialın gücləndirilməsi məqsədilə Əlahiddə Ümumqoşun Ordu ən müasir silahlar, Naxçıvanın coğrafi yerləşməsinə, relyefinə uyğun şəkildə bütün müasir texnikalarla təchiz edilib. Bu mənada, təsadüfi deyil ki, həmin gün muxtar respublikaya səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsinə gələn ölkə rəhbəri, Ali Baş Komandan cənab İlham Əliyev silahlanmaya yeni qəbul edilən hərbi texnikalarla tanış olub.

Dövlət başçısı Naxçıvanda hərbi infrastruktur quruculuğuna, onun müasir tələblər səviyyəsində yaradılmasına xüsusi diqqət yetirir. Mayın 16-da Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsinin yeni hərbi xəstəxanasının açılışında iştirakı, Əmiraslan Əliyev adına Sərhəd Dəstəsində, Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində yaradılan şəraitlə tanış olması bunu bir daha təsdiq edir.

**Rauf KƏNGƏRLİ**

## Yeni quruculuq ünvanları

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda cari ildə də tikinti-quruculuq tədbirləri sürətlə davam etdirilir. Belə tədbirlərdən biri rayon Tarix-Diyarşünaslıq Muzeyi üçün inşa edilən yeni binanın tikintisidir. Obyektdə artıq hörgü-beton işləri tamamlanıb və hazırda daxildə suvaq işləri aparılır. Binanın su və kanalizasiya, elektrik, rabitə xətləri işlənib, istilik sisteminin çəkilişinə hazırlıq görülür.

Qeyd edək ki, Tarix-Diyarşünaslıq Muzeyinin yeni binası zirzəmi ilə birlikdə dörd mərtəbədən ibarət olacaq. Müasir memarlıq üslubuna malik muzey binasında ekspozisiya zalı, fond və yardımçı otaqlar yaradılacaqdır. Tikinti işləri başa çatdıqdan sonra binanın ətrafında abadlıq işləri görüləcək, yaşıllıq zolaqları salınacaq, binanın yerləşdiyi ərazi rayona gələn çoxsaylı qonaqların, xarici turistlərin ziyarət edəcəyi əsas ünvanlardan birinə çevriləcək.



Muxtar respublikanın bütün bölgələrində olduğu kimi, Şərur şəhərində də əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər diqqət mərkəzində saxlanılır. Yeni, hərtərəfli şəraitə malik binalar inşa edilərək istifadəyə verilir, ehtiyac duyulan ictimai yaşayış binalarında yenidənqurma işləri aparılır. Eyni zamanda bir sıra binaların yaşayış sahələri genişləndirilir, əlavə tədbirlər hesabına onların təməlləri möhkəmləndirilir.

Görülən işlərin davamı olaraq rayon mərkəzinin Kapitan Seyidov küçəsindəki 7 nömrəli, beşmərtəbəli yaşayış binasının əsaslı təmirinə başlanılıb. Binanın dam örtüyü, qapı və pəncərələri dəyişdiriləcək, fasad hissəyə milli ornamentlərə uyğun travertin üzlüklər çəkiləcək, bütün kommunikasiya xətləri təzələnəcək. Dəhlizlərə üzlük plitələr düzüləcək. Mənzillər fasiləsiz olaraq ekoloji cəhətdən saf içməli su ilə təmin ediləcək. Yaşayış binasının həyətində abadlıq, yaşıllaşdırma işləri aparılacaq.

Rayonun İbadulla, Kosacan və Kərimbəyli kəndlərində də geniş quruculuq işləri aparılır. Hər üç ünvanda məktəb, kənd və xidmət mərkəzlərinin inşasına başlanılıb.

**Ramiyyə ƏKBƏROVA**

Jurnalistin qeydləri

# Neft lampası

### Xatırlatma

Ötən əsrin 90-cı illərinin sərt sazağı Naxçıvanın təbiəti kimi insanlarının da sabaha olan ümidlərini dondurmuşdu. Dağa-daşa, buz bağlayan çaylara belə, lal sükut hakim kəsilmişdi.

Ermənistan tərəfindən real işğal təhlükəsi, aclıq, çörəksizlik, dərin iqtisadi böhran həyatı iflic etmişdi. Ən pisi də o idi ki, həmişə sonda ölən ümidlər öz yerini ümidsizliyə verirdi. Qırılıb kömür peçlərində yandırılan ağacların da gücü ürəklərimizi isitməyə çatmırdı. Bir də o dövrdən yaddaşımızda xış verə-verə yanan neft lampaları qalıb. Ölkəmiz dünyanın neft səltənəti olsa da, Naxçıvan qonşu ölkələrdən zor-bəla ilə gətirilən bir qırıq neftin ümidinə qalmışdı.

Xəfif və nigaran-nigaran közərən neft lampalarının…

### Təəssürat

Naxçıvana mayın 16-da 14-cü səfərini edən Prezident İlham Əliyev 25 il əvvəlki yaxın tarixi vərəqləyir: ***"Mənim yadımdadır, 1990-cı illərin əvvəllərində atamın yanına gələrkən qaranlıq içində yaşayırdıq, biz özümüzü şam işığı ilə təmin edirdik. Ulu öndər Heydər Əliyev iş kabinetində neft lampasının işığında işləyirdi. Yəni, biz o günləri yaxşı xatırlayırıq. Bu gün elektrik enerjisi ilə bağlı bütün problemlər həll olunub. Son illərdə 8 elektrik stansiyası tikilib. Hazırda tikilməkdə olan 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyası işə düşəndən sonra Naxçıvan Muxtar Respublikası öz enerji tələbatının 100 faizini bərpaolunan enerji hesabına təmin edəcək. Bu, dünya miqyasında bəlkə də yeganə belə bir hal olacaqdır".***

### Güc

Məktəbimizin (Cəhri kənd məktəbi) hərbi hazırlıq müəllimi, rəhmətlik Qəhrəman Novruzov bizə əliyalın, silah-sursatsız işğalçı ermənilərin qabağına necə çıxmalarından tez-tez danışardı. Və həmişə deyərdi ki, ulu öndər Heydər Əliyev olmasaydı, Naxçıvan getmişdi. Nə texnika vardı, nə də bacarıqlı hərbi mütəxəssis. Bir dəfə birtəhər bir topçu tapıb gətirdik. O da düşmən səngərini nişan almaq əvəzinə tövləni vurub dağıtdı…

Və budur… Qəhrəman müəllimin dediklərindən 20 il keçir. İşğalçı ölkə mətbuatı, demək olar ki, hər gün Naxçıvan Ordusunun



gücündən, yeni silahlarından, peşəkar hərbçilərindən, döyüş təyyarələrindən, raket sistemlərindən yazır, bar-bar bağırıb bütün





dünyaya car çəkir.

*Prezidentimizin muxtar respublikaya son səfərindəki çıxışından sitat:* ***"Naxçıvanın hərbi potensialının gücləndirilməsində böyük işlər görülüb. Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi olan Naxçıvan Ordusu ən müasir silahlar, texnika ilə təchiz edilmişdir. Biz son illər ərzində Azərbaycan Ordusunu böyük dərəcədə gücləndirə bilmişik. Alınan müasir texnikanın demək olar ki, bütün növləri, yaxud da ki, əksər növləri Naxçıvana göndərilir. Naxçıvanın coğrafi yerləşməsinə, relyefinə uyğun şəkildə bütün müasir texnikalar göndərilir. Bu gün Naxçıvan Ordusu böyük qüvvəyə malikdir və düşmənin istənilən təxribatının qarşısını ala bilər və eyni zamanda, uğurlu əks-hücum əməliyyatı keçirə bilər. Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər. Yəni, təhlükəsizlik məsələləri tam təmin olunub. Bu məsələ daim diqqət mərkəzindədir".***

### Sevgi

Böyük quruculuq və inkişaf yolu keçərək dünyanın mühüm mədəniyyət mərkəzlərindən birinə çevrilən Naxçıvan həm də İslam Mədəniyyətinin Paytaxtıdır. Min illərdir ki, öz tarix və mədəniyyəti ilə könüllərdə taxt quran diyarımız bu adı qürurla daşıyır. İndi Naxçıvanı hamı sevir: sən də, mən də, turist də, qonaq da, can da, sirdaş da… Prezidentimizin Naxçıvan sevgisi öz sözləri ilə daha təsirlidi: ***"Bu il Naxçıvan "İslam Mədəniyyətinin Paytaxtı" kimi şərəfli adı daşıyır… Bilirəm ki, bu gözəl hadisə ilə bağlı təntənəli tədbirlər keçiriləcəkdir, çoxlu qonaqlar gələcəklər, bir daha görəcəklər ki, dünyada belə gözəl məkan var. Gözəl təbiəti, iqlimi, havası, mənzərəsi, binaları və ən önəmlisi, gözəl insanları olan gözəl məkan var – bu məkanın adı Naxçıvandır".***

### Qiymət

Bu gün konkret və mübaliğəsiz deyə bilərik ki, ulu öndər Heydər Əliyevin Azərbaycan naminə həyata keçirdiyi taleyüklü tədbirlərdən biri məhz Naxçıvan Muxtar Respublikasını özünün dövlətçilik məktəbində yetişib formalaşan cənab Vasif Talıbova etibar etməsi idi. Gəlin səmimi etiraf edək ki, Ali Məclisin Sədri Heydər Əliyev yoluna dərin sədaqət göstərərək Prezidentimizin yüksək diqqət və qayğısı ilə yeni bir Naxçıvan qurub-yaratdı. Bir vaxt adı olub, lakin lazımi inkişaf və infrastruktura sahib olmayan Naxçıvan Muxtar Respublikası indi inkişaf etmiş ölkələrə belə nümunə göstərilir. Qısası, cənab Vasif Talıbov haqiqi və çiçəklənən bir MUXTAR DÖVLƏT qurmağı bacardı. Özünün qətiyyəti, Vətənə dərin məhəbbəti ilə.

Cənab Prezidentimizin son səfərindəki qiymət: ***"Son 15 il ərzində respublikanın ümumi daxili məhsulu on dəfəyə yaxın artıbdır. Bu, məncə, dünya miqyasında rekord göstəricidir. Bütün uğurlar münasibətilə Naxçıvan Muxtar Respublikasının rəhbərliyini, bütün sakinlərini ürəkdən təbrik etmək istəyirəm…Yəni, bu mühüm işlərin görülməsi bir daha onu göstərir ki, Naxçıvanın çox böyük potensialı var. Bir daha demək istəyirəm ki, burada görülən işlər çox böyük qiymətə layiqdir".***

### Qayğı

May ayının 16-da etdiyi səfərlə Naxçıvana əsl bayram əhval-ruhiyyəsi yaşadan Prezidentimiz bu diyara davamlı qayğısını həm də imzaladığı 4 sərəncamla bir daha göstərdi. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha sürətlə davam etdirilməsi üçün 55 milyon manat ayrıldı. Və 16 may həm də tariximizə və yaddaşımıza ölkə başçımızın iştirakı ilə yeni sosial və hərbi təyinatlı bir neçə müasir obyektin açılışı ilə yazıldı.

### Son söz

*Tarix şəxsiyyətləri yaratmır, şəxsiyyətlər tarixi yaradırlar.*

**Sahil TAHİRLİ**
***jurnalist***

## "Euronews" telekanalı "Açıqcalar" silsiləsinin növbəti buraxılışını Duzdağın sirlərinə həsr edib







Xəbər verdiyimiz kimi, dünyanın aparıcı telekanallarından olan "Euronews" Naxçıvanın tarixi-mədəni irsini və turizm imkanlarını əks etdirən tanıtım videosüjetlərinin yayımına başlayıb, Möminə xatın türbəsi, Haçadağla bağlı reportajların ardınca telekanalın rusdilli versiyasının saytında Duzdağ barədə "Azərbaycan açıqcaları – Duzdağ dağının sirri" başlıqlı videoreportaj da yerləşdirilib.

"NUHÇIXAN" xəbər verir ki, "Euronews" əməkdaşları Qalina Polonskaya və Pol Tunin ötən ay Naxçıvana səfər edərək bu qədim diyarda çəkilişlər aparıblar. 12 xarici dildə yayımlanan və dünyada milyonlarla izləyicisi olan "Euronews"un budəfəki reportajı və məqaləsi Duzdağa həsr olunub. Vurğulanır ki, burada milyonlarla ton duz ehtiyatı var. Naxçıvan şəhərindən 14 kilometr aralıda yerləşən Duz dağı müalicəvi xüsusiyyəti olan təbii xəzinədir. Hələ qədim İpək yolunun mövcud olduğu vaxtlar burada daşduz çıxarılırdı. XX əsrdən isə Duzdağdan tənəffüs yolları xəstəliklərinin müalicəsi üçün istifadə etməyə başlayıblar. Duzun iyi artıq içəri girən kimi hiss olunur. Amma müalicə effektini almaq üçün ən azı 5 saat burada qalmaq lazımdır.

Duz mağaraları istənilən beşikdən daha yaxşı yuxu gətirir. Turistlər üçün isə giriş pulsuzdur.

"Nuhçıxan" İnformasiya Agentliyi xəbər verir ki, izləyicilərin böyük marağına səbəb olan və internet üzərindən minlərlə izləyici tərəfindən baxılan reportajda Duzdağ Fizioterapiya Mərkəzinin baş həkimi Zülfiyə Həsənova mərkəz haqqında məlumat verərək deyib ki, bu yer təkcə tənəffüs orqanlarının xəstəliklərini müalicə etmir, biz onun dəriyə faydalı təsirini də müşahidə etmişik.

Süjetdə "Duzdağ" oteli və Duz Muzeyinin də fəaliyyətinə nəzər salınır.

## Beynəlxalq Rəsm Festivalının iştirakçıları muxtar respublikanın tarixi mədəni abidələri ilə tanış olublar

***Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Naxçıvan – bəşəriyyətin beşiyi" IV Beynəlxalq Rəsm Festivalı keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun, Mədəniyyət Nazirliyinin və Rəssamlar Birliyinin təşkilatçılığı ilə bu gün açılışı olacaq festivalda 14 ölkədən 63 rəssam iştirak edəcək.***





Mayın 22-də qonaqlar əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri düzüb, Heydər Əliyev Muzeyi ilə tanış olublar.

Naxçıvan Dövlət Xalça Muzeyində olan festival iştirakçılarına bildirilib ki, hazırda burada 3 mindən çox eksponat var. Muzeyin daimi ekspozisiyasında xovlu və xovsuz xalçalar, müxtəlif əl işləri, tikmələr, toxuculuq alətləri, mis və saxsı qablar nümayiş etdirilir.

Sonra qonaqlar Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonuna gələrək ulu öndər Heydər Əliyevin 95 illiyinə həsr olunan sərgiyə baxıblar. Sərgidə 35 rəssamın 100-ə yaxın rəsm əsəri nümayiş olunur. Həmin əsərlər Beynəlxalq Rəsm Festivalı iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Naxçıvan Dövlət Tarix Muzeyi ilə tanışlıq zamanı məlumat verilib ki, burada Naxçıvanın qədim tarixi ilə bağlı 48 mindən çox eksponat qorunub saxlanılır. Ekspozisiyalar, əsasən, qədim və orta əsrləri, müasir dövrü əhatə edir.

Festival iştirakçıları Naxçıvan şəhərindəki Bəhruz Kəngərli adına Rəssamlar Parkına gələrək görkəmli rəssamın abidəsi önünə güllər düzüb, xatirə şəkli çəkdiriblər. Sonra Bəhruz Kəngərli Muzeyində olan qonaqlara məlumat verilib ki, muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il 22 may tarixli Sərəncamı ilə yaradılıb, 2002-ci il iyun ayının 18-də ümummilli lider Heydər Əliyevin iştirakı ilə açılışı olub. 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Bəhruz Kəngərlinin 120 illik yubileyinin keçirilməsi haqqında imzaladığı sərəncama əsasən Naxçıvan Muxtar Respublikasında da bir sıra işlər görülüb. Bəhruz Kəngərlinin Azərbaycan Milli İncəsənət Muzeyinin fondunda saxlanan bir çox əsərlərinin surəti çıxarılaraq muzeyə verilib, ilk dəfə olaraq rəssamın əsərlərinin tam külliyyatı albom-kataloq şəklində nəşr olunub. Eyni zamanda muxtar respublikada yubiley münasibətilə poçt markası buraxılıb. Bu gün muzeydə realist rəssamın zəngin irsinə aid yüzlərlə eksponat mühafizə edilir.

Həmin gün festival iştirakçıları "Naxçıvanqala" Tarix-Memarlıq Muzey, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə kompleksləri və Duzdağ Fizioterapiya Mərkəzi ilə də tanış olublar.

**Tural AĞAYEV**

Tariximizin saxlanc yeri

# Daş abidələri qoruyan muzey

***Qədim diyarımızda muzeylərin fəaliyyətinə göstərilən diqqət və qayğı nəticəsində yeni muzeylərin yaradılması sahəsində mühüm işlər görülür, bu mədəniyyət ocaqları muzeyşünaslığın yeni nailiyyətlərinə əsaslanaraq qurulur, cəmiyyətin həyatında mühüm rol oynayan uğurlu işlər kimi tarixə düşür.***



Açıq Səma Altında Muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2002-ci il 11 iyun tarixli Sərəncamına əsasən Naxçıvan şəhərindəki Əcəmi seyrəngahında yaradılıb.

"Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Nəzakət Əsədova bu mədəniyyət müəssisəsi haqqında bizi məlumatlandırdı. O bildirdi ki, muzeyin yaradılmasında əsas məqsəd xalqımızın mifoloji və dini baxışlarını özündə əks etdirən maddi-mədəniyyət nümunələrinin mühafizəsi, öyrənilməsi və təbliğ edilməsidir. İlk dəfə 80 eksponatla fəaliyyətə başlayan muzeydə hazırda 400-dən çox eksponat sərgilənir. Burada mifoloji və dini dünyagörüşlə əlaqədar olan 226 qoç heykəli, daş kitabə, qəbirüstü abidə, sütun altlıqları, müxtəlif daş fiqurlar, qəbirüstü sənduqələr, daşla bağlı məişət əşyaları qorunub nümayiş etdirilir. Dəyirmandaşı, tikinti üçün istifadə olunan daşlar, dibəkdaşı, daş qablar vaxtilə xalqımızın məişətində geniş istifadə olunub. Ekspozisiyada nümayiş etdirilən zoomorf abidələri isə təbii proseslər nəticəsində yaranan abidələrdir.

Orta əsrlər dövründə Naxçıvanda yaşayan daşyonma ustaları daşdan müxtəlif növ sənət əsərləri hazırlayıblar. Bu gün muzeydə qorunub saxlanılan daş abidələri xalqımızın müxtəlif dövrlərdə əl qabiliyyəti, dünyagörüşü, zövqü haqqında geniş məlumat verir. Muzeyin direktoru onu da vurğuladı ki, oyma, yonma, cızma üsulu ilə daş üzərinə həkk olunmuş təsvirlərin ən qədim nümunələrindən biri eramızdan əvvəl IV-III minilliyə aid Ordubad rayonundakı Gəmiqaya abidəsi üzərindəki rəsmlərdir. Muzeyin ən dəyərli eksponatlarından olan Gəmiqayadan gətirilmiş daş kitabənin üzərindəki keçi, əqrəb, quş və digər heyvan təsvirləri bu diyarın qədim sakinlərinin dünyagörüşünü, bədii-estetik təfəkkürünü əks etdirir.

Muzeydə nümayiş etdirilən qoç heykəlləri, qəbirüstü abidələr, daş üzərində oymalar azərbaycanlıların ən qədim inancları ilə bağlı olub. Muzeyin əsas simvolları qoç fiqurlarıdır. Qoç fiqurlarının çox hissəsi sadə qoç formasında hazırlanıb. Onların üzərində xalqımızın məişətinə, məşğuliyyətinə, incəsənətinə aid müxtəlif təsvirlər həkk olunub. Üzərində qılınc təsviri olan qoç fiqurları mərdlik və qəhrəmanlıq simvolu, at kişilik, günəş isə istilik, həyat, işıq rəmzi sayılıb.

Qoç qədim türk xalqlarında güc, qüvvət, bolluq rəmzi hesab edilib. Bu fiqurlar ilk öncə qəbirlərə, yəni dəfn olunan şəxsin yanına qoyulub, lakin İslam dininin meydana gəlməsi ilə bu adət müvəqqəti unudulub. Sonralar Qaraqoyunlu və Ağqoyunlu tayfalarının Azərbaycanda hakimiyyəti dövründə həmin adətə yenidən qayıdılıb. Hər iki dövlətin bayraqlarındakı ağ və qara qoç təsvirlərinin olması da bu faktı sübut edir. Zaman keçdikcə bu adət qəbirlərin üzərinə qoyulan heykəllərlə əvəz olunub.

Həmin dövrə aid qəbirdaşları üzərində, adətən, mərhumun peşə və sənətini əks etdirən bir sıra məişət və təsərrüfat əşyaları, güzgü, qayçı, xəncər təsvirlərinə rast gəlinir. Kiçik formalı memarlıq əsərləri olan sənduqələrin üzərlərində isə müqəddəs "Qurani-Kərim"dən götürülmüş ayələrdən ibarət kəlmələr həkk olunub.

Eksponatlar arasında memorial xatirə abidələri də mühüm yer tutur. Onlardan biri də burada nümayiş olunan ən qədim qəbirüstü xatirə abidəsidir. Qəbilə quruluşu dövrünün məhsulu olan bu abidə qəbir üzərində dik basdırılmış heykələ bənzəyir.

Muzeydə nümayiş etdirilən sütun altlıqları isə orta əsrlərdə darvaza qapılarının yanında bəzək əşyası kimi istifadə edilib. Daş məmulatı təkcə tikinti materialı kimi deyil, həmçinin təsərrüfat və məişətdə də geniş tətbiq olunub.

Nəzakət Əsədova qeyd edir ki, tariximizin bütün dövrlərini əhatə edən eksponatlar muzeylərdə öz əksini tapıb və onların gələcək nəsillərə çatdırılması üçün işlər görülüb və hazırda da davam etdirilir. Ötən il Culfa rayonundakı Əlincəqala ətrafından gətirilmiş XVI əsrə aid olan beş ton ağırlığındakı dəyirmandaşı, həmçinin Ordubad rayonunun Tivi və Biləv kəndlərindən gətirilmiş daş abidələr və üzərində müqəddəs "Qurani-Kərim"dən ayələr yazılmış məzarüstü abidə ekspozisiyada nümayiş olunur. Aparılan arxeoloji tədqiqatlar nəticəsində müxtəlif dövrləri əhatə edən tapıntılar tariximizin bir daha qədim köklərə malik olduğunu, eyni zamanda xalqımızın Şərq və İslam mədəniyyətinin ilkin nümunələrini yaratdığını sübut edir.

Bu gün muzeylər tariximizin hər bir səhifəsini nümayiş etdirən, mədəniyyətimizin ümumi yüksəlişini, milli şüurun inkişafını əks etdirən maddi-mənəvi dəyərlər xəzinəsi olmaqla yanaşı, həm də muxtar respublikamızda turizmin inkişafında da çox böyük rol oynayır. Minlərlə turistin baş çəkdiyi muzeylər içərisində ilk yerlərdən birini tutan Açıq Səma Altında Muzey əlverişli mövqeyi, mərkəzdə yerləşməsi ilə Naxçıvana gələn qonaqların diqqətini ilk andan cəlb edir. Muzeyi hər il minlərlə tamaşaçı, xüsusilə Hindistan, İran, Türkiyə Almaniya, Avstriya-Macarıstan, İsrail, Niderland, ABŞ, Belçika, Norveç, Rumıniya, Kuba və digər xarici dövlətlərin nümayəndələri, eləcə də 60 mindən çox əcnəbi vətəndaş ziyarət edir. Bu isə zəngin tarixi-mədəni irsimizin təbliği və tanıdılması baxımından mühüm əhəmiyyət kəsb edir.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

***Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda voleybol üzrə Naxçıvan Muxtar Respublika turnirinə yekun vurulub.***

# Voleybol turniri üzrə qalib komanda məlum olub



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Voleybol Federasiyasının birgə təşkil etdiyi turnirdə 8 komanda olimpiya sistemi üzrə mübarizə aparıb. Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən turnir iki gün davam edib.

Turnirin son günündə 3-cü yer uğrunda görüş, eyni zamanda final qarşılaşması keçirilib. İlk olaraq meydana Naxçıvan və Culfa voleybolçuları çıxıblar. Bu görüşdə azarkeşlər 5 setə şahidlik ediblər. Daha baxımlı oyun nümayiş etdirən "Culfa" komandası meydanı qələbə ilə tərk edib – 3:2.

Həlledici qarşılaşmada isə Sədərək və Şərur komandalarının nümunəvi oyunu azarkeşlər tərəfindən alqışlarla qarşılanıb. Hər üç setdə üstünlüyü qoruyub saxlayan şərurlular 3:0 hesabı ilə qələbə qazanaraq turnirin qalibi olublar.

Sonda ilk üç pilləni tutan komandalar mükafatlandırılıb. Mükafatları Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov və Voleybol Federasiyasının sədri Mənşur Gülməmmədov təqdim ediblər.

✍ **Ceyhun MƏMMƏDOV**

Yurdumuzun nemətləri

# Dağlarımızın növbəti ərməğanı

May ayı dağlarımızın bizə növbəti ərməğanının – uşqunun (buna rəvənd də deyirlər) vədəsidir. Yadımdadır, orta məktəb illərində uşqun yetişəndə əlimizə düşən qəpikləri heç nəyə xərcləməzdik. Bilirdik ki, bu vaxtlar uşqun yığanlar onu məktəbin ətrafında satmağa gətirəcəklər. O zamanlar uşaqlarla, sadəcə, bir-birimizin bəhsinə alıb yediyimiz bu yabanı bitkinin nə qədər faydalı olduğunu zaman keçdikcə anladıq. Bunu anladığımız vaxtsa artıq nə biz məktəbli idik, nə də uşqun "bizim ayağımıza gəlirdi", biz onu axtarıb, tapıb, alıb yeməliydik. Bəs ləzzətlə yediyimiz bu bitkinin faydaları haqqında yetərincə məlumatınız varmı?

Yeyilməli dövrü cəmi 30-40 gün – aprel ayının 20-dən may ayının sonunadək olan (sonra bərkidiyindən yemək olmur) bu bitkinin tərkibindəki zəngin vitamin və mineralların şəkər, xərçəng, ürək xəstəliklərində, immun sisteminin möhkəmlənməsində, orqanizmdə xolesterolun səviyyəsinin aşağı salınmasında, tərkibindəki çoxsaylı liflərə görə həzm prosesinin yaxşılaşmasında əvəzsiz faydaları vardır.

Uşqunun "vətəni" muxtar respublikamızda Ordubad, Culfa və Şahbuz rayonları hesab olunur. Ona adıçəkilən rayonların çox yox, bir və ya iki kəndindəki dağların qumsal yamaclarında rast gəlmək olar. Məsələn, bu bitki Şahbuz rayonunun yalnız Kolanı və Kükü ilə Yuxarı Qışlaq kəndlərinin arasında Səhlalı massivi deyilən ərazidəki dağ yamaclarında bitir.



Yuxarı qışlaqlı Mehdi, Şaməddin və Budaq Səfərovlar əmioğludurlar. Uzun illərdir ki, bu bitkini mövsümündə toplayıb bazara çıxarırlar. Onlarla söhbət zamanı bu haqda heç də hamımızın bilmədiyi məlumatları öyrəndik. Mehdi deyir ki, bu bitkinin məhsuldarlığı yalnız qışda və yazda yağıntının miqdarı ilə əlaqədardır. Bax götürək bu ili. Qış yağıntısız keçdiyindən, əslində, bu il uşqun olacağını gözləmirdik. Lakin erkən yazdan bəri yağan yağışlar, necə deyərlər, bu bitkiyə can verdi, məhsul bol oldu. Söhbətə qoşulan Budaq isə daha maraqlı bir fakt deyir: – Çox adam bunu bilmir ki, qabalax və uşqun eyni kökün üzərində bitən iki bitkidir. Qabalax hər il olur, lakin uşqun yağışla bağlıdır. Yağıntı çox olan illərdə baldırğanda olduğu kimi, bu bitkidən 20-25 santimetrədək özəklər qalxır, bu, uşqundur. Onu yığmaq qaydası belədir ki, burada bıçaqdan istifadə olunmur. Əllə çəkirsən, özəyin içərisindən sürüşüb çıxır. Lakin qabalax bu bitkinin kökündən yarpaqlar arasından qalxan 15-20 santimetrlik hissədir, bunu bıçaqla torpağın üzərindən kəsib götürürük. Dadı turş və acı olur. Budağın dediklərindən anladım ki, bazarda uşqun adı ilə 1 manata və 1 manat 50 qəpiyə satılan dəstələrin heç də hər ikisi uşqun deyilmiş. Mehdi dedi ki, fikir versəniz, görərsiniz ki, dəstələrin boylarında və formalarında bir qədər fərq var.

Budaq bu bitkinin çox gözəl və maraqlı çiçək və yarpaqlarından da danışaraq deyir ki, kaş bircə dəfə bu mənzərəni görərdiniz. Uşqunun böyük yarpaqlarına günəş şüaları düşəndə yaşıl aləmin bir talasına ağappaq qar yağıbmış kimi görünür. Bu yarpaqlar o qədər böyükdür ki, ondan yağışdan və günəşdən qorunmaq üçün çətir kimi də istifadə etmək olur. Uşqunun çiçəkləri isə başqa bir aləmdir. Onun gözəl rəngi və ətri var. Biz bu çiçəkləri toplayıb kölgədə quruduruq. Onun ətirli çayı həm də mədə-bağırsaq, qaraciyər xəstəliklərində istifadə olunur. Bitkinin kökü isə şəkər xəstəliyinə dərmandır.

Yuxarı qışlaqlı Səmənnaz Quliyeva və Validə Ələkbərovanı kənddə hamı uşqundan çox yaxşı turşu qoyan və mürəbbə bişirən xanımlar kimi tanıyır. Səmənnaz xanım bu barədə belə deyir: – Bu turşunu bir neçə ildir ki, qoyuram. 3-4 il olar, eşitdim ki, uşqun neçə-neçə dərdlərin dərmanıdır, xüsusilə də xərçəngin. Fikirləşdim ki, bundan yazda istifadə edirik, qışda niyə etməyək? Ona görə də turşusunu hazırladım. Çox dadlı və xoş ətirli olur. Səmənnaz xanım turşunun hazırlanma qaydasından da danışdı: – Bu turşu da sobu, çaşır, baldırğan kimi qoyulur, lakin fərq ondadır ki, uşqunun qabığı soyulur, bir də ki isti suda pörtlədilmir, elə çiy şəkildə duza qoyulur. Validə xanım isə uşqun mürəbbəsinin bişirilməsi barədə danışdı: – Mürəbbə üçün özəklərin yuxarı kövrək hissəsi götürülür. Qabığı soyulur, qənd tikəsi böyüklükdə doğranır. 1 kiloqram uşqun üçün 1,5 kiloqram şəkər tozu götürülür. Şirə hazırlanır, uşqun buraya əlavə edilib bişirilir. Validə xanım mürəbbənin gözəl rəngi və ətri olduğunu da bildirdi və dedi ki, ən ağır soyuqdəymələrdə yaranan iştahsızlıqda, həmçinin susuzluqda adama bu mürəbbə xüsusilə xoş gəlir.

Bitki ilə əlaqədar araşdırmalar apararkən Azərbaycan dilinin izahlı lüğətində uşqun sözünün ikidorlu yelkənli gəmi (qayıq) kimi izahı ilə tanış olmuşdum. Budağın uşqunun yarpaqlarını təsvir edən söhbətini dinlədikdən sonra bu bitkinin yelkənli gəmiyə (qayığa) çox bənzədiyi qənaətinə gəlmək olur. Bəlkə də, lüğətimizdəki uşqun sözü böyük yarpaqları ilə yelkəni, ümumi görünüşü ilə qayığı xatırladan bu bitkinin adından qaynaqlanıb. Naxçıvan dialekt və şivələrinin izahlı lüğətində isə uşqun Naxçıvanın əksər şivələrində faydalı, qabığı soyulub yeyilən yabanı bitki kimi göstərilir. Lüğətdə qeyd edilir ki, uşquna Ordubad rayonunun Vənənd kəndində "piltan" deyilir.

Həmsöhbət olduğum xanımların, həqiqətən, çox maraqlı olduğu üçün yaddaşıma həkk olan fikirlərini də xatırlatmaq istəyirəm. Onlar deyirdilər ki, insanla təbiət arasında qırılmaz bir əlaqə var. Biz bu təbiətdə doğulmuşuq, bu təbiətin bir canlısı biz, digəri isə həmin bitkilərdir. Onlarla qidalanmaqla, çaylarından istifadə etməklə sağlam ola bilərik. Bitkilər də onlara bizim əllərimiz dəyərsə, bəslənib çoxaldılması qayğısına qalarıqsa, artıb çoxala, "uzunömürlü" ola bilərlər.

Muxtar respublikamızın möcüzəli təbiətinin əsrarəngiz bitki aləmi ilə tanış olduqca və bu aləmin dilini bilən, illərlə onun sehrinə düşən insanlarının söhbətlərini dinlədikcə bir-birindən maraqlı məqamlara rast gəlmək olur. Elə, yəqin, buna görədir ki, bol günəşli və oksigenli yurdumuzun zəngin təbiəti bura gələnləri də hər zaman valeh edir və hər kəs bu torpaqlarda bitən bitkilərin, meyvə-tərəvəzin dadının bənzərsiz olduğunu etiraf edir.

✍ **Mətanət MƏMMƏDOVA**

***İtmişdir***

Naxçıvan şəhəri, 14-cü məhəllə, ev 2-də yaşayan Kərimov Kərim Nağdəli oğlunun adına olan evin 4547 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 380